1_Layout 1 10.03.2015 11:58 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 05 (447)
12 mart
2015-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# 12 MART - DAXİLİ QOŞUNLAR GÜNÜ

***"Daxili Qoşunların, əsasən cəbhə bölgəsində olan hissənin xidmətini xüsusi qeyd etmək istəyirəm. Bu gün onlara hörmət və ehtiramımı bildirmək istəyirəm. Onlar orada böyük işlər görürlər. Azərbaycanın torpaqlarını qəhrəmancasına müdafiə edirlər. Belə döyüşçülərin işi hər birimizi sevindirir və böyük hörmət hissi doğurur".***

**Heydər Əliyev, Ümummilli Lider**



## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ QOŞUNLARIN GÜNÜ ELAN OLUNMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

**Azərbaycan Respublikası Daxili Qoşunlarının Vətənin müdafiəsində xidmətlərini və öz vəzifələrini müvəffəqiyyətlə yerinə yetirmələrini qiymətləndirərək qərara alıram:**

**Erməni işğalçılarına qarşı döyüşə başladıqları gün-12 mart Azərbaycan Respublikasının Daxili Qoşunlarının günü elan edilsin.**

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 9 mart 1995-ci il

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİN ALİ BAŞ KOMANDANI İLHAM ƏLİYEV DAXİLİ QOŞUNLAR HAQQINDA



"Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanda Daxili Qoşunlar yarandı. Bu, ölkəmiz üçün çox çətin bir dövr idi. Müstəqilliyimizin ilk illəri Azərbaycanda anarxiya və xaosla müşayiət olunurdu. Demək olar ki, ölkə parçalanma ərəfəsində idi və Azərbaycanda yaşanan böhran ümumiyyətlə, ölkəmizi uçurum kənarına gətirmişdi. Bu çətin şəraitdə, əlbəttə ki, Daxili Qoşunlar öz funksiyalarını tam mənada icra edə bilməzdilər. Amma eyni zamanda, Daxili Qoşunlarda xidmət edən şəxsi heyət Azərbaycanın ərazi bütövlüyü uğrunda cəsarətlə vuruşmuşdu, şəhidlər vermişdi və torpaqlarımızın qorunması uğrunda böyük işlər görmüşdür".

"Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir".

"Son illər ərzində Daxili Qoşunlar Azərbaycanda sürətlə inkişaf etmişdir, çox yüksək səviyyədə peşəkarlıq var, vətənpərvərlik var. Bu, bizim üçün çox böyük nailiyyətdir".

"Azərbaycan dövləti, dövlətçiliyinin inkişafı və möhkəmlənməsi üçün Daxili Qoşunların xidməti yüksək səviyyədədir və məni qane edir".

## Azərbaycan Respublikası vətəndaşlarının 2015-ci il aprelin 1-dən 30-dək həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə uyğun olaraq və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələri şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə qərara alıram:

**1.** 1997-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1980-1996-cı illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2015-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

**2.** "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2015-ci il aprelin 1-dən 30-dək ehtiyata buraxılsınlar.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 mart 2015-ci il

# ŞƏRƏF, ŞÜCAƏT, CƏSURLUQ VƏ MƏSULİYYƏT!

***Bu, Daxili Qoşunların hərbi qulluqçularının daxilində formalaşan, onları daha da ləyaqətli Vətən keşikçisi kimi fədakar xidmətə ruhlandıran əvəzsiz keyfiyyətlərdir...***

Bu il martın 12-si Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaranmasının 23-cü ildönümüdür. "12 Mart-Daxili Qoşunlar Günü"nü bütün hərbi hissələrimiz böyük təntənə ilə qeyd edir. Artıq 23 il arxada qaldı. Bu illər ərzində qoşunlarımız vəzifələrindən irəli gələn tapşırıqların öhdəsindən böyük rəşadətlə gələrək, daha əzəmətli, daha güclü olduğunu nümayiş etdirdi. Zaman baxımından qısa olan bu illəri Daxili Qoşunlar müstəqil dövlətimizlə birgə addımladı. Bu baxımdan deyə bilərik ki, qoşunların tarixi müstəqil Azərbaycanın ayrılmaz bir hissəsidir.

Daxili Qoşunlar Ümummilli Liderimiz Heydər Əliyevin söz və əməl vəhdəti, xüsusi diqqət və qayğısı ilə formalaşmış, inkişaf etmiş, yüksək döyüş hazırlığı olan peşəkar bir quruma çevrilmişdir. Tariximizə nəzər salsaq, görərik ki, 23 illik salnaməmizin hər səhifəsində Ulu Öndərin fəaliyyəti var. Daxili Qoşunlar müstəqil Azərbaycanın həmyaşıdı kimi yaranma, formalaşma və inkişaf dövrünü məhz Ulu Öndərimizlə birgə, onun tövsiyələrinə, göstərişlərinə istinad edərək keçmişdir. Şəxsi heyətin dövlətə, dövlətçiliyə sədaqətli xidmətini dəfələrlə yüksək qiymətləndirən Ümummilli Liderimiz hərbi qulluqçuların sosial təminatının yaxşılaşdırılması üçün sərəncamlar imzalamış, onları Vətənin ən yüksək mükafatları ilə təltif etmişdir.

Bu gün Daxili Qoşunların şəxsi heyəti Ümummilli Liderimizə ehtiram, məhəbbət, onun əvəzsiz ideyalarına sədaqət ruhunda tərbiyə olunur. Daxili Qoşunlarda dünən də, bu gün də, sabah da xidmət edəcək hərbi qulluqçular Böyük Öndərin qoşunların inkişafı, onun dünya standartlarına uyğun bir qurum kimi formalaşması üçün göstərdiyi diqqət və qayğını heç vaxt unutmayacaq, hər zaman minnətdarlıqla xatırlayacaqlar.

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Ümummilli Lider Heydər Əliyev ideyalarını uğurla davam etdirir. Daxili Qoşunların maddi-texniki və sosial bazasının yüksək səviyyədə təchizatı da məhz bu qayğının real təzahürüdür.**

Hər il Daxili Qoşunların sıralarına gənc nəsil daxil olur. Onlar şəxsi heyətin, cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların konstitusiya hüquqlarını qoruyurlar. Təbii ki, Daxili Qoşunların cəlb olunduğu bütün tədbirlər konkret qanuna əsaslanıb.

Daxili Qoşunların fəaliyyəti 8 fevral 1994-cü il tarixli "Daxili Qoşunların statusu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmişdir. Qanuna uyğun olaraq, Daxili Qoşunlar ona həvalə olunmuş vəzifələri yerinə yetirməklə şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların Konstitusiya hüquqlarını və azadlıqlarını cinayətkar və digər hüquqazidd qəsdlərdən qoruyur.

Qoşunların fəaliyyəti haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından, Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin, habelə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və digər müvafiq dövlət orqanlarının normativ aktlarından ibarətdir.



***Ötən illərin təcrübəsi bir daha sübut edir ki, Daxili Qoşunlar həmişə daxili sabitliyin, ictimai asayişin təminatçısı olaraq qarşısında duran dövlət əhəmiyyətli xidməti-döyüş tapşırıqlarının öhdəsindən layiqincə gəlir.***

Qanunçuluq, insan hüquqlarına və azadlıqlarına hörmət, humanizm, təkbaşçılıq, mərkəzləşmiş idarəetmə, ümumi hərbi vəzifə və qoşunların könüllülük qaydasında bağlaşma üzrə komplektləşdirilməsi, hərbi qulluqçuların xidmət çəkməsinin əraziyə bağlı olmaması Daxili Qoşunların fəaliyyətinin əsas prinsipləridir.

Daxili Qoşunlar hər bir şəxsi onun vətəndaşlığından, yaşayış yerindən, sosial mənşəyindən, əmlak və vəzifə mövqeyindən, irqi və milli mənsubiyyətindən, cinsindən, yaşından, təhsilindən, dilindən, dinə münasibətindən, əqidəsindən, ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq cinayətkar qəsdlərdən müdafiə edirlər. Vətəndaşların hüquq və azadlıqlarının hər hansı şəkildə məhdudlaşdırılmasına ancaq qanunla nəzərdə tutulmuş əsasda və qaydada yol verilir.

Bütün bunlar yalnız bir məqsədə - Daxili Qoşunların vəzifələrinin icrasına hazırlığının yüksək səviyyədə saxlanmasına xidmət edir.

Şərəf, şücaət, cəsurluq, məsuliyyət! Bu, Daxili Qoşunların hərbi qulluqçularının daxilində formalaşan, onları daha da ləyaqətli Vətən keşikçisi olmağa ruhlandıran əvəzsiz keyfiyyətlərdir!

Daxili güc, özünənam hissi! İctimai asayişin, sabitliyin qorunmasında, cinayətkarlıqla mübarizədə bu keyfiyyətlər daha çox uğurlara yol açır. Sadə vətəndaş da, dövlət də hərbi qulluqçularımızın məhz daxili gücünə, qüvvəsinə inanır.

Sıralarında yüzlərlə qəhrəmanları birləşdirən, həmişə xalqın içində, xalqa daha yaxın olan Daxili Qoşunlar!!!

23 illik xidmət yolu bir daha sübut edir ki, Daxili Qoşunlar həmişə xalqın əmin-amanlığının, asayişin sabit durumunun sadiq keşikçisi olaraq qarşısında duran dövlət əhəmiyyətli xidməti-döyüş tapşırıqlarının öhdəsindən gəlməyə hazırdır və qadirdir.

2_Layout 1 10.03.2015 9:32 Page 1



DAXİLİ QOŞUNLAR GÜNÜ ƏRƏFƏSİNDƏ NÖVBƏTİ ƏLAMƏTDAR HADİSƏ

# YENİ HƏRBİ HİSSƏYƏ DÖYÜŞ BAYRAĞI TƏQDİM OLUNDU

*Martın 2-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Qəbələ şəhərində yerləşən "N" saylı hərbi hissəsinə Döyüş Bayrağının təqdim olunmasına həsr edilmiş təntənəli mərasim keçirilib.*

*Tədbirdə respublikanın daxili işlər naziri, general-polkovnik Ramil Usubov iştirak edib.*

Əvvəlcə daxili işlər nazirinin qarşılanması olub, nazir müavini - Daxili Qoşunların komandanı, general-mayor Şahin Məmmədov general-polkovnik Ramil Usubova şəxsi heyətin mərasimə hazır olması barədə raport verib. Nazir şəxsi heyəti salamlayıb, əlamətdar hadisə münasibətilə onları təbrik edib.

Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda döyüşlərdə həlak olmuş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra mərasim açıq elan olunub.

Sonra daxili işlər naziri ölkə Prezidentinin müvafiq fərmanı ilə verilmiş Döyüş Bayrağını hərbi hissənin komandirinə təqdim edib. Azərbaycanın Dövlət himni səsləndirilib.

**Nazir müavini-Daxili Qoşunların komandanı, general-mayor Şahin Məmmədov çıxış edərək Daxili Qoşunların inkişafından və xüsusilə son illərdə əldə etdiyi uğurlardan danışıb.** Diqqətə çatdırılıb ki, bu gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunları qarşısına qoyulmuş bütün tapşırıqları layiqincə yerinə yetirməyə qadir, yüksək döyüş hazırlığına, müasir maddi-texniki bazaya malik bir quruma çevrilib.

Daxili Qoşunların peşə və döyüş hazırlığının möhkəmləndirilməsi istiqamətində dövlət başçımızın, daxili işlər nazirinin əmr və göstərişlərinin mütəmadi olaraq həyata keçirildiyini qeyd edən komandan bildirib ki, bu xüsusi diqqət və qayğıya şəxsi heyət öz layiqli xidməti ilə cavab verəcək, Döyüş Bayrağını hünərlə, böyük fədakarlıqla qoruyacaq, dövlətimizə və xalqımıza həmişə sədaqətli olacaqdır.

O da vurğulanıb ki, hər bir azərbaycanlı üçün üçrəngli, ay-ulduzlu bayrağımız millətimizin, dövlətimizin qürur mənbəyi olduğu kimi, Döyüş Bayrağı da hərbi qulluqçu üçün şərəf, vicdan və hünər rəmzidir. Döyüş Bayrağına ehtiramla yanaşmaq, ona hörmət göstərmək hər bir hərbi qulluqçunun müqəddəs vəzifəsi və borcudur.





**Sonra daxili işlər naziri, general-polkovnik Ramil Usubov Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təbriklərini və xoş arzularını şəxsi heyətə çatdırıb.**

Silahlı Qüvvələrimizin formalaşmasında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri olduğunu xatırladan general-polkovnik Ramil Usubov onun ordu quruculuğu çərçivəsində Daxili Qoşunların da təkmilləşməsinə böyük önəm verdiyini xatırladıb, Daxili Qoşunların şəxsi heyətinin ərazi bütövlüyümüz və suverenliyimizin, dövlətçiliyimizin, milli mənafelərimizin keşiyində hər zaman ayıq-sayıq dayandığını, ölkəmizdə daxili sabitliyin, ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunmasında əsas qüvvələrdən birinə çevrildiyini qeyd edib.

**Nazir bildirib ki, Ümummilli Liderin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Silahlı Qüvvələrin tərkib hissəsi olan Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, onun peşəkarlığının yüksəldilməsinə daim diqqət və qayğı göstərir. Məhz bunun nəticəsi olaraq, bu gün Daxili Qoşunlar qarşıya qoyulan istənilən döyüş tapşırığını layiqincə yerinə yetirməyə qadirdir.**

Daxili Qoşunların yüksək peşəkarlığa və mənəvi-psixoloji hazırlığa malik mobil bir quruma çevrildiyini qeyd edən nazir ötən il sentyabrın 22-də ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sözügedən hərbi hissədə inşa olunan yeni şəhərciyin açılışındakı iştirakını məmnunluqla xatırladaraq, onun dəfələrlə hərbi hissələrdə olmasının, şəxsi heyətin sosial-məişət şəraiti ilə yaxından maraqlanmasının və göstərdiyi qayğının hərbi qulluqçuların döyüş ruhunun yüksəlməsinə təkan verdiyini, Vətənə, xalqa xidmət əzmini daha da artırdığını vurğulayıb. Bildirilib ki, ictimai qaydanın qorunmasında və qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsində fərqlənən şəxsi heyətin fədakar əməyi ölkə başçısı tərəfindən həmişə yüksək qiymətləndirilir, hərbi qulluqçular müxtəlif dövlət mükafatları ilə təltif olunur.

Son illərdə Daxili Qoşunların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində bir sıra məqsədyönlü tədbirlərin həyata keçirilməsinin, nəinki paytaxtda, eləcə də regionlarda yerləşən hərbi hissələrdə geniş abadlıq və quruculuq işlərinin aparılmasının, müxtəlif təyinatlı obyektlərin, o cümlədən yeni hərbi şəhərciklərin, əsgər kazarmalarının tikilməsinin, zabitlər, gizirlər üçün hər bir şəraitə malik yaşayış komplekslərinin istifadəyə verilməsinin bunun bariz nümunəsi olduğu nəzərə çatdırılıb.

**Sonda daxili işlər naziri göstərdiyi ali diqqət və qayğıya görə şəxsi heyət adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı zatialiləri cənab İlham Əliyevə dərin minnətdarlığını bildirib və onu əmin edib ki, Daxili Qoşunların hərbi qulluqçuları ictimai asayişin və sabitliyin keşiyində bundan sonra da ayıq-sayıq dayanacaq, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında səy və bacarıqlarını əsirgəməyəcək, hər zaman xalqa, Vətənə, dövlətə və Prezidentə sədaqətlə xidmət edəcəklər.**

**DİN-in Mətbuat xidməti**

## VƏZİFƏLƏRİMİZ

### 23 İL DÖVLƏT VƏ DÖVLƏTÇİLİYİN KEŞİYİNDƏ











**Daxili Qoşunlar:**

*- mühüm dövlət obyektlərini, kommunikasiya qurğularını, xüsusi yükləri mühafizə edirlər;*

*- mühafizə olunan obyektlərdə və qurğularda qəzaların, yanğınların, təbii fəlakətlərin və buna bənzər başqa halların nəticələrinin ləğvində iştirak edirlər;*

*- mühafizə olunan əraziyə soxulmuş şəxslərin axtarılmasında və tutulmasında iştirak edirlər;*

*- islah-əmək müəssisələrində kütləvi iğtişaşların qarşısını almağa kömək göstərirlər;*

*- mühafizədən qaçmış məhkumların və həbs edilmiş şəxslərin axtarılmasında və tutulmasında iştirak edirlər;*

*- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin maddi-texniki və hərbi təchizat idarələrinin anbarlarını və hərbi bazalarını mühafizə edirlər;*

*- digər daxili işlər orqanları ilə birlikdə şəhərlərdə və digər yaşayış məntəqələrində patrul-post xidməti vasitəsi ilə ictimai asayişin qorunmasında, habelə kütləvi tədbirlər keçirilərkən ictimai təhlükəsizliyin təmin olunmasında iştirak edirlər;*

*- qəzalar, bədbəxt hadisələr, yanğınlar, təbii fəlakətlər və başqa fövqəladə hallar zamanı, habelə fövqəladə vəziyyətin hüquqi rejimi təmin edilərkən adamların xilas edilməsi, sahibsiz qalmış əmlakın mühafizəsi, ictimai asayişin qorunması üçün təxirəsalınmaz tədbirlər görməkdə daxili işlər orqanlarına kömək göstərirlər;*

*- yaşayış məntəqələrində kütləvi iğtişaşların qarşısının alınmasında iştirak edirlər;*

*- zərurət olduqda Azərbaycan Respublikası ərazisinin müdafiəsində iştirak edirlər.*











***Atəşkəs dövründə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının nailiyyətlərinə, mühüm inkişaf göstəricilərinə nəzər saldıqda aydın şəkildə görünür ki, ötən zaman kəsiyində, demək olar ki, qoşunlar yenidən formalaşmağa başlayıb. Daxili Qoşunların fəaliyyətinin hüquqi-normativ bazası yaradılıb. Sovet dövründən qalma direktiv, əmr və təlimatlar, nizamnamə və əsasnamələr öz qüvvəsini itirib.***

# DAİMA YENİLƏŞƏN, İNKİŞAF EDƏN DAXİLİ QOŞUNLAR

*Son illər Daxili Qoşunlarda həyata keçirilən əsaslı tədbirlər bütün xidmət sahələrində özünü göstərməkdədir*

Daxili Qoşunların hərbi hissələrinin maddi-texniki bazası möhkəmləndirilib, bir sıra regionlarda yeni hərbi hissələr yaradılaraq ictimai təhlükəsizlik sistemində öz yerini tutub. Bundan əlavə, Daxili Qoşunların çevik helekopter eskadrilyası formalaşdırılıb. Bu da onun döyüş potensialını kifayət qədər artırıb. Hərbi qulluqçularımız paraşütdən tullanmada da öz məharətini göstərib və bu sınaqdan alnıaçıq çıxıb.

Ötən illərdə beynəlxalq əməkdaşlıq əlaqələri genişlənib, Daxili Qoşunların hərbi qulluqçularının ayrı-ayrı ölkələrdə hərbi təhsil almaları, təkmilləşmə kurslarında iştirak etmələri yönündə addımlar atılıb. Bəzi hərbi qulluqçularımız xaricdəki hərbi təhsil müəssisələrində yüksək təlim nəticələri nümayiş etdiriblər. Beynəlxalq əlaqələr çərçivəsində xidmətin müxtəlif istiqamətləri üzrə xarici həmkarlarla faydalı təcrübə mübadiləsi aparılıb.

Şəxsi heyətin qidalanması, geyim təchizatı, tibbi təminatı müasir tələblər səviyyəsinə çatdırılıb. Əsgər heyəti üçün yeni kazarmalar inşa olunub, zabit və gizirlərin, onların ailə üzvlərinin istifadəsinə yeni yaşayış binaları verilib. Eyni zamanda zabit və gizirlərin, habelə onların ailələrinin yüksək səviyyədə dincəlməsi üçün istirahət mərkəzi də yaradılıb.

Daxili Qoşunların peşəkarlığının artırılması üçün müvafiq təlim-tədris proqramları işlənib, təlim vəsaitləri yenilənib, təlimdə müasir texnologiyalardan istifadə olunmasına başlanıb.

Mərhələ-mərhələ öncə zabit və gizirlər üçün tədris mərkəzinin, sonra kiçik zabitlər hazırlayan orta ixtisas hərbi məktəbinin və nəhayət, Ali Hərbi Məktəbin yaradılması ötən dövr üçün Daxili Qoşunların mühüm inkişaf göstəricilərindən sayıla bilər.

Ötən müddətdə Daxili Qoşunların şəxsi heyətinin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun qorunub saxlanmasına xüsusi diqqət yetirilib. Elə bu məqsədlə, habelə Daxili Qoşunların tarixini əks etdirmək üçün müvafiq muzeyin yaradılması təqdirəlayiq nailiyyətdir. Həmçinin bu illərdə Daxili Qoşunların Qarabağ müharibəsində insani və maddi itkilərinin, habelə döyüşlərdə iştirak etmiş hərbi hissələrin qiymətli təcrübəsinin müəyyən tədqiqatları da aparılıb. Ancaq bu proses yekunlaşmayıb.

Qeyd olunan dövrdə Daxili Qoşunların emblemi, döyüş bayrağı və döş nişanı təsdiq edilib. Bütün hərbi hissələrə döyüş bayrağı təqdim olunub və şəxsi heyətə döyüş bayrağının müqəddəsliyi aşılanıb.

Təhlil etdiyim bu illərdə idman uğurlarına da imza atmışıq. Peşəkar idmançı hərbi qulluqçularımız arasında Olimpiya oyunlarında, Dünya və Avropa çempionatlarında qalib olaraq ölkəmizin bayrağını qaldıranlar xalqımızın fəxridir.

Göstərilən nailiyyətlərə rəğmən, Daxili Qoşunların nüfuzunu formalaşdıran, peşəkar imicini yaradan əsas faktor xidməti-döyüş fəaliyyətində qarşıya qoyulan tapşırıqların layiqincə yerinə yetirilməsi olub. Bu gün də belədir.

Vətəndaşlarımızın əmin-amanlığını təhdid edən, ictimai asayişə təhlükə yaradan silahlı cinayətkarların, terrorçu qrupların zərərsizləşdirilməsi, ayrı-ayrı vaxtlarda paytaxt və bəzi bölgələrdə kütləvi iğtişaşların qarşısının alınması, dövlət əhəmiyyətli tədbirlərdə ictimai təhlükəsizliyin təmin olunması, təbii fəlakətlər zamanı xilasetmə işlərində fəal iştirak edilməsi, mühüm dövlət obyektlərinin etibarlı qorunması ictimai rəydə "onlara güvənmək olar" mövqeyinin formalaşmasını reallığa çevirib.

Atəşkəs dövründə Daxili Qoşunlar əsasən asayiş qoşunu kimi funksiyalarını geniş tətbiq etsə də, döyüş gücü və əzmi geriləməyib. Şəxsi heyət bu gün də hər bir sınaqdan keçməyə qadirdir.

**Yalçın Abbasov,**
**Daxili Qoşunların**
**Veteranlar Şurasının katibi**

3_Layout 1 10.03.2015 11:37 Page 1



# DÖYÜŞ YOLUMUZ

**DİN-in Daxili Qoşunlarının yaranması və formalaşması ölkəmizin çox çətin, qarışıq bir dövrünə təsadüf etmişdir.**

**1992-ci il martın 12-də Daxili Qoşunların Biləcəri, Sumqayıt və Gəncədəki hərbi hissələrinin şəxsi heyəti erməni işğalçıları ilə döyüşə başlamış, ərazi bütövlüyümüz uğrunda Ağdam rayonunun Papravənd, Qalayçılar, Manikli, Baş Güneypəyə, Canyataq, Gülyataq kəndlərində vuruşmuşdur. Həmin döyüş günü rəmzi olaraq "Daxili Qoşunların günü" kimi müəyyən edilmişdir. Bu döyüşlərdə iştirak edən hərbi qulluqçularımızdan baş leytenant Ruber Səfərəliyev, leytenant Rafiq İsmayılov və çavuş Hatəmxan Babayev Daxili Qoşunların ilk şəhidləri olmuşlar.**

Daha bir cəsur hərbçi gizir Mahir Hümbətov komanda-qərargah maşını düşmənin əlinə keçməsin deyə onu partlatmış, özü də qəhrəmancasına həlak olmuşdur.

Digər bir qəhrəmanlıq nümunəsi isə Aterk kəndinin müdafizəsi zamanı göstərilmişdir. Gəncə alayının hərbi qulluqçuları hücuma keçən silah-sursat, zirehli texnika baxımından sayca üstün olan düşmənin qarşısından geri çəkilməmiş son gülləleri bitənədək müqavimət göstərmişlər. Belə bir vəziyyətdə əliyalın olsalar belə, əlbəyaxa döyüşə atılan 38 nəfər cəngavər döyüşçümüz düşmən qüvvələri tərəfindən əlləri-qolları bağlanaraq diri-diri yandırılmışlar. Şəhidlər Xiyabanında onların qəhrəmanlığını əks etdirən















Daxili Qoşunların Ağdam alayının döyüş yolu igidlik və qəhrəmanlıqla zəngindir. Ağdam, Ağdərə və Füzuli rayonlarının yaşayış məntəqələri bu alayın şəxsi heyətinin cəsarəti, qəhrəmanlığı ilə azad edilmiş və müdafiə olunmuşdur. Qoşunların şəxsi heyəti ön cəbhəyə gəldiyi ilk anlardan yüksək nizam-intizam, ruh yüksəkliyi və qorxmazlıq göstərmiş, Vətənə övladlıq borcunu şərəflə yerinə yetirmişlər. Onlardan biri-Elpərəst Hüseynov Çıldıran kəndinin azad olunması zamanı düşmənin 70-dən çox canlı qüvvəsini məhv etmişdir. O, sol qolunu itirməsinə baxmayaraq, son damla qanına qədər vuruşmuş və düşməni bir addım belə irəliləməyə qoymamışdır.

məzarüstü lövhədə hər birinin adı həkk olunmuşdur. Digər bir nümunə kimi Füzuli rayonu istiqamətində beş hərbi qulluqçumuzun rəşadətini göstərə bilərik. Onlar adi silahla düşmən tankı qarşısından geri çəkilməyərək qəhrəmancasına şəhid olmuşlar. Məzarları Füzuli rayonunun Böyük Bəhmənli kəndindədir.

1993-cü il noyabrın 2-də Ümummilli Lider Heydər Əliyevin xalqa tarixi müraciəti bütünlüklə Silahlı Qüvvələrin yenidən qurulması və formalaşması yolunda gərəkli bir proqrama çevrildi. Ulu Öndərin söz və əməl vəhdəti Daxili Qoşunlarda böyük canlanma və ruh yüksəkliyi yaratdı. Məhz bu zaman, 13 noyabr 1993-cü ildə qoşunların şəxsi heyəti Füzuli istiqamətində döyüş əməliyyatları həyata keçirmişdir. Ağır döyüşlərdən sonra, 1994-cü ilin yanvar ayında Horadiz qəsəbəsi və 12-dən artıq kənd azad olunmuşdur. Əsaslı dönüş kimi qiymətləndirilən bu döyüşlərdə hərbi hissələrimizin fəaliyyəti əvəzsiz olmuşdur.

**Ümumiyyətlə, döyüş əməliyyatları zamanı Daxili Qoşunların şəxsi heyətindən 510 nəfər həlak olmuş, 1166 nəfər yaralanmış, 268 nəfər isə itkin düşmüşdür. Həlak olan igid oğulların bir çoxunun qəhrəmanlıqları, şücaəti qiymətləndirilərək adları əbədiləşdirilmiş, 24 məktəbə, 7 məhəllə və küçəyə, bir körpüyə, bir mədəniyyət evinə onların adları verilmişdir.**

## İLK ŞƏHİDLƏRİMİZ



**Baş leytenant Ruber Səfərəliyev**

1992-ci ilin iyun ayında Ağdam-Əsgəran bölgəsində gedən ağır döyüşlərdən birində şəhid olub.

"... Baş leytenant R.Səfərəliyev Əsgəran istiqamətindəki Naxçıvanik, Aranzəminli kəndlərinin müdafiəsində öz hərbi səriştəsindən bacarıqla istifadə etdi. Naxçıvanik kəndinə hücuma keçən ermənilər baş leytenant R.Səfərəliyevin tabeliyindəki döyüşçülərin güclü müqavimətinə rast gəldilər.

Gecə vaxtı Pirtəpə adlanan yüksəkliyə hücum olmalıydı. Yüksəkliyə yaxınlaşdıqda əsgərlər bir-birindən ayrı düşməyə başladılar. Çünki göz-gözü görmürdü. Yüksəklik sıx meşələrlə örtülü idi. Çətinliklə də olsa, gecə saat 4-ün yarısı yüksəkliyə qalxa bilmişdik. Erməni mövqeləri ilə bizim aramızda 70-80 metr məsafə olardı. Biz onların səslərini eşidirdik. Birdən baş leytenant R.Səfərəliyevin "irəli, türk oğulları" əmrini eşitdik. Təxminən bir saatlıq qız-ğın atışma oldu. Sonra o, irəliyə atılarkən düşmən gülləsinə tuş gəldi.

Belə qaynar təbiətli, ürəyi Vətən sevgisi ilə döyünən bir komandirin döyüş uğurlarını, düşmən üzərinə mərdliklə irəliləməsini unuda bilmirik. Biz əsgərlər onu ağır döyüşlərdə əsl qəhrəman kimi tanıdıq".

**Leytenant Rafiq İsmayılov**



1962-ci ildə anadan olub. 1985-ci ildə Azərbaycan Dövlət Bədən Tər-biyəsi İnstitutunu (hazırda Dövlət Bədən Tərbiyəsi Akademiyası) bitirib. 1986-cı ildə hərbi xidmətə çağırılıb. Sonra taleyi-ni hərbçi peşəsinə bağlayıb. Daxili Qoşunların id-man bölüyündə xidmət edib.

O, peşəkar idmançı kimi idmanın silahsız özünümüdafiə və cüdo növlərində yüksək nəticələr əldə edib, qələbələr qazanıb. Beynəlxalq dərəcəli idman ustası idi.

Leytenant R.İsmayılov Xocalı faciəsindən sarsılaraq, könüllü olaraq ön cəbhəyə gedib. 1992-ci ilin mart ayında Ağdam bölgəsində Qaraqaya istiqamətində ön mövqelərimizdə döyüş zamanı düşmən snayperinin gülləsinə tuş gəlib. Bakıda Şəhidlər Xiyabanında dəfn olunmuşdur.



**Çavuş Hatəmxan Babayev**

1972-ci ildə Zəngilan rayonunun Keçikli kəndində dünyaya göz açıb. Hərbi xidmətə qədər idmanın klassik güləş növü ilə məşğul olub. Qaynaqçı ixtisasına yiyələnib. O, 1990-cı ildə hərbi xidmətə çağırılıb. Torpaqlarımızın erməni işğalçılarından azad olunması uğrunda aparılan döyüşlərdə öz cəsarəti, qorxmazlığı ilə fərqlənmişdir.

1992-ci ilin mart ayından başlayan döyüş yolu Ağdam bölgəsindən keçibdir. O, kəşfiyyatçı kimi qarşıya qoyulan döyüş tapşırıqlarını layiqincə yerinə yetirmişdir. Sonuncu dəfə 1992-ci il mart ayının 31-də Papravənd kəndinin (Ağdam) müdafiəsi uğrunda döyüşdə şəhid olmuşdur.

ŞƏHİDLƏR ÖLMƏZ, VƏTƏN BÖLÜNMƏZ!!!

# MİLLİ QƏHRƏMANLARIMIZ

## ONLAR VƏTƏN UĞRUNDA VURUŞMUŞLAR



**Polkovnik Məmmədov Sahil Ələmdar oğlu**

1964-cü ildə anadan olub. Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib, ağır yaralanıb, sağdır. **Daxili işlər orqanlarından ehtiyata buraxılıb.**

Azərbaycan Respublikası Prezidentinin 08 oktyabr 1992-ci il tarixli fərmanı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.



**Kapitan Arazov Ənvər Talış oğlu**

1953-cü ildə anadan olub.

31.10.1992-ci ildə Ağdərə rayonu uğrunda gedən döyüşdə şəhid olub. Gəncə şəhərində "Şəhidlər Xiyabanı"nda dəfn edilib.

Azərbaycan Respublikası Prezi-dentinin 06 noyabr 1992-ci il tarixli fərmanı ilə ona "Azərbay-canın Milli Qəhrəmanı" fəxri adı **(ölümündən sonra)** verilmişdir.



**Baş leytenant Yəhyayev Elşad Məhəmmədhənifə oğlu**

1966-cı ildə anadan olub.

19.06.1992-ci ildə Ağdərə rayonu uğrunda gedən döyüşlərdə şəhid olub. Bakı şəhərində "Şəhidlər Xiyabanı"nda dəfn edilib.

Azərbaycan Respublikası Prezidentinin 08 oktyabr 1992-ci il tarixli fərmanı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı **(ölümündən sonra)** verilmişdir.



**Baş leytenant Nəcəfov Fəxrəddin Vəliyəddin oğlu**

1967-ci ildə anadan olub. 04.09.1992-ci ildə Ağdərə rayonu uğrunda gedən döyüşdə həlak olub. Bakı şəhərində "Şəhidlər Xiyabanı"nda dəfn edilib.

Azərbaycan Respublikası Prezidentinin 06 noyabr 1992-ci il tarixli fərmanı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı **(ölümündən sonra)** verilmişdir.



**Baş leytenant Quliyev Mətləb Kamran oğlu**

1959-cu ildə anadan olub.

31.08.1992-ci ildə Ağdərə rayonu uğrunda gedən döyüşdə şəhid olub. Sumqayıt şəhərində "Şəhidlər Xiyabanı"nda dəfn edilib.

Azərbaycan Respublikası Prezi-dentinin 06 noyabr 1992-ci il tarixli fərmanı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı **(ölümündən sonra)** verilmişdir.



**Baş leytenant Abdullayev Rövşən Əbdülhüseyn oğlu**

1969-ci ildə anadan olub.

13.09.1992-ci ildə Zəngilan rayonu uğrunda gedən döyüşdə şəhid olub. Lənkəran şəhərində "Şəhidlər Xiyabanı"nda dəfn edilib.

Azərbaycan Respublikası Prezi-dentinin 15 yanvar 1995-ci il tarixli fərmanı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı **(ölümündən sonra)** verilmişdir.



**Çavuş Makayev İqor Vladimiroviç**

1971-ci ildə anadan olub. 05.08.1992-ci ildə Ağdərə rayonu uğrunda gedən döyüşdə şəhid olub. Gəncə şəhərində "Şəhidlər Xiya-banı"nda dəfn edilib.

Azərbaycan Respublikası Prezi-dentinin 06 noyabr 1992-ci il tarixli fərmanı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı **(ölümündən sonra)** verilmişdir.



**Sıravi Məhərrəmov Səxavət Ələmdar oğlu**

1973-cü ildə anadan olub.

18.08.1992-ci ildə Ağdərə rayonu uğrunda gedən döyüşdə şəhid olub. Bakı şəhərində "Şəhidlər Xiyabanı"nda dəfn edilib.

Azərbaycan Respublikası Prezidentinin 06 noyabr 1992-ci il tarixli fərmanı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı **(ölümündən sonra)** verilmişdir.



**Sıravi Muradov Ruslan Həmid oğlu**

1973-cü ildə anadan olub.

22.08.1992-ci ildə Ağdam rayonu uğrunda gedən döyüşdə şəhid olub. Mingəçevir şəhərində "Şəhidlər Xiyabanı"nda dəfn edilib.

Azərbaycan Respublikası Prezidentinin 06 noyabr 1992-ci il tarixli fərmanı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı **(ölümündən sonra)** verilmişdir.

# VETERANIMIZIN İLK KİTABI NƏŞR OLUNUB...

***"Nərgiz" nəşriyyatında Daxili Qoşunların Veteranlar Şurasının katibi, jurnalist, ehtiyatda olan kapitan Yalçın Abbasovun "Gələcəyin zabitlərilə görüş " kitabı işıq üzü görüb. 19.12.2014-cü ildə Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının Ali Hərbi Məktəbində müasir ədəbiyyatımızın istedadlı nümayəndələrindən biri olan döyüşçü- şair Elxan Xəzərlə keçirilən görüşdən qeydlər əsasında hazırlanan kitab gənclərə hərbi vətənpərvərlik əqidəsinin aşılanması baxımından dəyərli mənbədir. Kitabda müəllifin Daxili Qoşunların Ali Hərbi Məktəbi barədə "Əsgər" qəzetində dərc edilmiş məqaləsi, habelə onun E.Xəzərin həyat və yaradıcılığına dair geniş məruzəsi öz əksini tapıb.***




Bundan əlavə , həmin yaddaqalan tədbirdə döyüşçü-şair E.Xəzərin, Daxili Qoşunların Veteranlar Şurasının sədri Murad Mürsəlovun, AHM rəisi general-mayor İlqar Məmmədovun çıxışları kitaba daxil edilib. Bu çıxışlarda ölkəmizdə ordu quruculuğunun uğurları, qoşunların keçdiyi şərəfli yol və bugünkü fədakar xidməti, AHM-in Daxili Qoşunlar üçün zabit kadrlarının hazırlanmasında xüsusi rolu haqqında fikirlər, eləcə də gələcəyin zabiti olacaq kursantlara dəyərli nəsihətlər böyük maraq doğurur.

Tədbir iştirakçısı olmuş Daxili Qoşunların veteranları: Telman Aslanov, Mehralı Şamxalov , Səfxan Bayramov və Əlixan Bünyadovun döyüşçü şair E.Xəzər haqqında ürək sözlərinə də müəllif kitabında yer verib. Həmin veteranların zəngin həyat təcrübəsini, qoşunlarda uzun müddət xidmətini, E.Xəzəri yaxından tanımasını nəzərə alsaq, fikirlərindəki məqamlar özünəməxsus cəhətlərilə seçilir.

Həmçinin, nəşrdə AHM-in bir sıra kursantlarının E.Xəzərin yaradıcılığına dair fikirləri də dərc olunub.

Kitabda E.Xəzərin vətənpərvərlik mövzusunda bir neçə şeri də çap olunub. Tədbirin fotoizlərini də əks etdirən kitab oxuculara bütövlükdə nəfis tərtibatda təqdim olunur.

Dövri mətbuatda mütəmadi olaraq vətənpərvər mövzularda dərin məzmunlu məqalələri dərc edilən silahdaşımızın hazırladığı bu kitab gənclərin AHM-də hərbi təhsil almasına həvəsləndirilməsi baxımından da öz töhfəsini verəcək.

Uzun illər "Əsgər" qəzetinin redaksiyasında çalışmış Yalçın Abbasovu ilk kitabının çap olunması münasibəti ilə təbrik edir, yaradıcılıq yolunda uğurlar arzulayırıq.

**P.S.** *Martın 7-də DİN Daxili Qoşunların Ali Hərbi Məktəbində qoşunların veteranlarının iştirakı ilə Y.Abbasovun "Gələcəyin zabitlərilə görüş" kitabının təqdimat mərasimi keçirilib. Tədbirlə bağlı ətraflı məlumatı gələn sayımızda oxuya bilərsiniz.*

## BİZİM ŞÜAR:

**“NÜMUNƏVİ HƏRBİ İNTİZAM VƏ YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI UĞRUNDA!”**





# DAXİLİ QOŞUNLARIN CÜMHURİYYƏT TARİXİ

**Azərbaycan xalqının Ümummilli Lideri unudulmaz Heydər Əliyev daima uzaq və yaxın keçmişimizin bugünkü nəslə məlum olmayan səhifələrini işıqlandırmağı tövsiyə edirdi. Məhz onun təşəbbüsü ilə bu istiqamətdə bir sıra vacib və gərəkli qərarlar qəbul edilmişdir. Tarixi faktlar aşkarlandıqdan sonra milli ordunun yaranması günü həqiqi tarixi gününə-26 iyuna keçirilmişdir. Böyük Öndər bu addımla Azərbaycanda ordu quruculuğunun 80 illik bir tarixi olduğunu təsdiq etmişdir.**

1918-ci ildə yaranmış, şərqdə ilk demokratik respublika olan Azərbaycan asayişin, əmin-amanlığın qorunmasını, qanunazidd hərəkətlərin qarşısının alınmasını da vacib hesab edirdi.

Azərbaycan Respublikasının Dövlət Arxivində mühafizə edilən sənədlərdə bu gün Daxili Qoşunlar adlanan qurumun məhz ADR dövründə (1918-1920) yaradılması barədə məlumatlar var.

Azərbaycan Demokratik Respublikasının yeni təşəkkül tapdığı bir dövrdə əhalini hərbi işlə tanış etmək, şəhərdə sabitlik və nizam-intizamın saxlanması məqsədi ilə Azərbaycan Demokratik Respublikası parlamentinin icazəsi ilə 1919-cu il 1 iyun tarixindən könüllü əsgərlər dəstəsi yaradılmışdır.

Bu barədə Bakı şəhərinin komendantı general-mayor F.Vəzirovun 7 sentyabr 1919-cu il tarixli məlumatında bildirilmişdir.



ВЫПИСКА

урнала постановлений Комитета Государственной обороны Азербайд-
ой Республики отъ 27 марта 19 20 года.

СЛУШАЛИ:
лада Председателя Ко-
ета Государственной
роны о передачѣ Бакин-
й Организацiи Добро-
льческихъ Отрядовъ "Ярдимъ-
Алейи" въ вѣдѣнiе
инист ерства Внутреннихъ
лъ и объ ассигнованiи
едствъ на выдачу жало-
нья офицерамъ и прочiе
ходы Организацiи.

ПОСТАНОВИЛИ:
I.Бакинскую Организацiю Добровольческихъ Отрядовъ "Ярдимъ-Алейи" передать въ вѣдѣнiе Министерства Внутреннихъ Дѣлъ съ и непосредственнымъ подчиненiемъ ея Министру Внутреннихъ Дѣлъ.
2.Отпустить изъ средствъ Государственнаго Казначейства въ распоряженiе Министра Внутреннихъ Дѣлъ на выдачу жалованья и прочiе расходы Организацiи одинъ миллiонъ /I.000.000/ рублей.

Съ подлиннымъ вѣрно:
За секретаря Комитета

Dəstə Bakı şəhərinin 14 rayonunu: Sabunçu, Mərkəzi, Balaxanı, Zabrat, Suraxanı, Xil, Aşağı Bibiheybət, Yuxarı Bibiheybət, Qara şəhər, Ağ şəhər, Tağıyev fabrikası, Binəqədi, Maştağa, Nardaranı əhatə edirdi.

Dəstənin rəisi Yusif Ziya bəy Talıbzadə təyin edilmişdir.

**1919-cu il 10 iyun tarixində Azərbaycan Demokratik Respublikası Dövlət Müdafiə Komitəsinin iclasında qərara alınmışdır ki, Bakı şəhəri və onun rayonlarının ərazisində yaşayan hərbi çağırış yaşına çatmış şəxslər üçün hərbi hazırlıq təşkil edilsin.**

**Könüllü dəstələrin təşkili üzrə komissiyanın sədri Yusif Ziya bəy Talıbzadə (beş min rubl əməkhaqqı verilməklə) təyin edilmişdir.**



1920-ci il 27 mart tarixində yenə də Azərbaycan Demokratik Respublikası Dövlət Müdafiə Komitəsinin qərarı əsasında Bakı təşkilatının Yardım alayının könüllü dəstələri ADR Daxili İşlər Nazirliyinin sərəncamına verilmişdir.



*XX əsrin ilk onillikləri Azərbaycan tarixində milli intibah dövrü kimi yadda qalmışdır. Lakin xalqın milli mənafeyinə, tərəqqiyə xidmət etmiş bir sıra şəxsiyyətlər zaman keçdikcə unudulmuş, sovet ideologiya maşını onların tanınması, həyat və fəaliyyətləri haqqında məlumatların təbliğinə imkan verməmişdir. Xalqımızın milli istiqlalı və tərəqqisi üçün böyük işlər görmüş şəxsiyyətlərdən biri də Yusif Ziya Talıbzadədir.*

# YUSİF ZİYA TALIBZADƏ - ASAYİŞ DƏSTƏSİNİN İLK KOMANDANI

**Yusif Ziya Talıbzadə 1877-ci il yanvar ayının 22-də Tiflisdə anadan olub. Əvvəlcə Tiflisdə, sonra isə Xorasan və Bağdadda yüksək təhsil almış Yusif Ziya XX əsrin əvvəllərində türkçülük, islamçılıq, azərbaycançılığın ideoloqlarından biri, publisist, maarifçi, şair, dramaturq, hərbçi və siyasi xadim idi. O, 1917-1923-cü illərdə milli istiqlal hərəkatının fəal iştirakçısı olub.**

Uşaqlıq və yeniyetməlik çağlarında Yusif Ziya farslaşdırma və ruslaşdırma siyasətinin türkçülüyə vurduğu zərbələri görüb, daima buna qarşı mübarizə aparmışdır. Tədqiqatçıların gəldiyi qənaətə görə, Y.Z.Talıbzadə ölkəmizdə ilk xəritə tərtib etmiş azərbaycanlıdır. “İslam tarixi və tarixi müqəddəs ənbiyayə dair məkanların nəqşəsi və islam məmləkətlərinin xəritəsidir” adlı bu nadir xəritə 1904-cü ildə Bakıda A.M.Promişlyanskinin litoqrafiyasında Azərbaycan dilində çap olunub. İndi biblioqrafik xarakter daşıyan bu nadir divar xəritəsindən XX əsrin əvvəllərində “Rus-tatar” məktəblərində dərs vəsaiti kimi kütləvi şəkildə istifadə edilirdi.

1912-ci ildə Yusif Ziya həyat yoldaşı Cənnət xanım və oğlu Tələtlə Türkiyəyə köçüb, orada hərbi təhsil alıb, I dünya müharibəsində Qars Ərdəhan türk ordusu sıralarında ruslara, ermənilərə qarşı döyüşlərdə (minbaşı-mayor rütbəsində) qəhrəmanlıqlar göstərib. Yusif Ziya Osmanlı ordusunda polkovnik rütbəsinədək yüksəlib. Onun sonrakı hərbi-siyasi fəaliyyəti Osmanlı ordusu və Azərbaycan könüllülərindən ibarət “İslam ordusu”nda davam edib.

1918-ci ildə Yusif Ziya türk ordusu ilə bərabər Bakıya qayıdır. Vaxtı ilə Türkiyədə çalışan Əhməd bəy Ağaoğlunun hərbi müşavir olduğu bir ordunun könüllülərdən ibarət olan Yardım alayının rəisi olur.

Bu təyinata qədər Bakının alınmasınadək keçən şərəfli döyüş yolunda Osmanlı əsgərləri ilə yanaşı, Yusif Ziyanın da şücaəti şəksizdir.

1921-ci ilin əvvəllərində Yusif Ziya Naxçıvana hərbi komissar təyin olunur. Fevral-mart aylarında ailəsi ilə birgə Naxçıvana köçür. Yeni hərbi komissar Naxçıvan torpağına göz dikən, ona əl uzadan daşnak silahlı dəstələrinə divan tutmaqla Naxçıvanda xeyli məşhurlaşır. Belə məlumatlar da var ki, hətta Naxçıvanda Yusif Ziya kəndi də olub.

Y.Z.Talıbzadə 1921-ci ilin fevral ayından 1922-ci ilin dekabrınadək Naxçıvanda hərbi komissar vəzifəsində çalışıb.

**Lakin Naxçıvan torpaqlarına iddia ilə yanaşan, sərhədləri tez-tez pozan erməni millətçilərinə, daşnaklara qarşı sovet rəhbərliyinin liberal siyasəti ilə razılaşmayan Yusif Ziya Bakıya qayıdır, Nəriman Nərimanovla görüşür, bu quruluşla uyğunlaşa bilmədiyini, sovetlərə qulluq etmək istəmədiyini bildirir. N.Nərimanov Sovet İttifaqı sərhədlərini tərk etmək üçün ona rəsmi sənəd verir.**

**Yusif Ziya Azərbaycandakı fəaliyyətinə son qoyaraq, şəhidliklə başa çatan mühacirət həyatına üstünlük verir. Yaxşı tanıdığı Ənvər paşanın komandanlıq etdiyi, işğalçı Qızıl Ordu ilə vuruşan, Orta Asiya xalqlarının müstəqilliyi uğrunda mübarizə aparanlara qoşulmaqla bir daha milli simasını, ictimai-siyasi mövqeyini, əqidəsini ortaya qoyur.**

Yusif Ziya ilə bağlı Azərbaycan mühacirət ədəbiyyatında dərc olunmuş yazıların hamısında onun qanlı döyüşlər zamanı qəhrəmancasına şəhid olduğu vurğulanır.

**1923-cü ildə Orta Asiyadan gəlmiş bir nəfər Yusif Ziyanın qana bulaşmış köynəyini və həmişə yanında gəzdirdiyi kiçik cib Quranını onun qardaşı yazıçı Abdulla Şaiqə vermişdir. Həmin qanlı cib Quranı Abdulla Şaiqin mənzil muzeyinin ekspozisiya zalında mühafizə olunmaqdadır.**

## Allah rəhmət eləsin

DQBİ-nin şəxsi heyəti baş çavuş Orxan Allahverdiyevə **babasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## UNUTMA!

**1813-1828-ci illərə** qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. **1918-ci ildə** Çar Rusiyası dağıldıqdan sonra Azərbaycan torpaqlarından 9 min kv.km-lik əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

**1918-1920-ci illərdə** cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyaz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də davam etmişdi. **1922-1923-cü** illərdə “yoldaş” Kirov tərəfindən Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, **1929-cu ildə** Əliheydər Qarayev tərəfindən Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir və Tuğud kəndləri, **1946-cı ildə** Mir Cəfər Bağırov tərəfindən 40 kv.km-lik meşə sahəsi, **1969-cu ildə** Vəli Axundov tərəfindən Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi, **1984-cü ildə** isə Kamran Bağırov tərəfindən Qazax rayonundan torpaq sahəsi ermənilərə verilmişdir.

**1988-ci ildə** Azərbaycanın ərazisi 86,6 min kv.km idi.

**1988-1993-cü illərdə** aşağıdakı ərazilər işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

| | | |
|---|---|---|
| **Şuşa şəhəri** | **- (289 kv.km)** | **- 8.05.1992** |
| **Laçın rayonu** | **- (1835 kv.km)** | **- 17.05.1992** |
| **Kəlbəcər rayonu** | **- (1936 kv.km)** | **- 2.04.1993** |
| **Ağdam rayonu** | **- (1094 kv.km)** | **- 23.07.1993** |
| **Cəbrayıl rayonu** | **- (1050 kv.km)** | **- 18.08.1993** |
| **Füzuli rayonu** | **- (1386 kv.km)** | **- 23.08.1993** |
| **Qubadlı rayonu** | **- (802 kv.km)** | **- 31.08.1993** |
| **Zəngilan rayonu** | **- (707 kv.km)** | **- 29.10.1993** |

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: mayor R.Sarıyev

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 590-65-21

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000